Abdu`r-RAHMAN əs-SUDEYS

# MƏKKƏ

## HÜZUR VƏ ƏMİN-AMANLIQ YURDU

www.islamevi.az

**Bu kitab, DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN 27/09/2006 tarixli № DK – 377d saylı razılığı ilə nəşr edilmişdir.**

**Kitabın müəllif hüquqları qorunur.**

# MƏKKƏ, HÜZUR VƏ ƏMİN-AMANLIQ YURDU

Ey ALLAH`ın qulları! Sizlərə və nəfsimə ALLAH`dan layiqincə qorxmağı tövsiyə edirəm. Çünki ALLAH`dan layiqincə qorxmaq, yəni təqva, ən güclü sığınacaq, daimi azüqə və təmiz yoldur. Cənnətə gedən yolda ən yaxşı vasitədir.

Ey Müsəlmanlar! Keçmişdən bəri insan yer üzündə nəfsinin sabitlik əldə edəcəyi, hüzur və təsəlli tapacağı bir həyat axtarır. Qorxu və narahatlıq içində olan insan yediyinin dadını bilərmi? Yuxunun və rahatlığın faydasını görərmi? Maddi irəliləyiş sahəsində çətin hədəflərə çatan müasir həyat qorxu və narahatlıq altında olub, hələ bu mənfi cəhətlərdən xilas olmamışdır. Bu soyuq və qaranlıq həqiqətlər altında həyatın nə dadı olur?

İslam günəşinin doğması ilə kainata deyilməyəcək və yazılmayacaq qədər hüzur və güvən gəldi.

Günahların narahatlığından və fəlakətlərə səbəb olan ünsürlərdən uzaq olub güvən içində yaşamaq bütün fərdlərin və cəmiyyətlərin, bütün xalqların və sivilizasiyaların arzuladığı hədəfidir.

Ey Müsəlmanlar! Bunları deyərkən, İslam ümməti onu bir yerə toplayan əminlik nöqtəsinə yönəlir. Bu gün nəzərlər dünyadakı əmin-amanlıq və sabitlik mərkəzinə yönəlmişdir.

Ey Beytullahı ziyarətə gələnlər! ALLAH`ın ﷻ qullarına olan nemətlərindən biri də, ALLAH`ın ﷻ onlar üçün Ummu`l-Qurada (Məkkədə) Beytullahda, güvənilən ölkədə və təmiz torpaqlarda mübarək məkanlar və müqəddəs sahələr seçməsidir. Bu məkanlar, qəti olaraq ən xeyirli və ən fəzilətli məkanlardır. Həmçinin ALLAH ﷻ bu məkanları Qiyamətə qədər oxunacaq Quran ayələrində zikr etmişdir:

*"(Ya Rəsulum! De: ) "**Mənə ancaq bu şəhərin** (Məkkənin) **RƏBB`inə ibadət etmək əmr olumuşdur. Elə bir şəhər ki,** (RƏBB`im) **onu mü-***

***qəddəs tutmuşdur.*** (*Orada qan tökmək, bir kəsə zülm etmək qadağan olunmuşdur. Başqa yerdə halal olan şeylər orada haram buyurulmuşdur*)***. Hər şey yalnız …"***[1]

Müqəddəs Kitabda iki yerdə bu bölgə adına and içilmişdir. Belə buyurulur:

***"And içirəm bu şəhərə*** (*Məkkəyə*)***"***[2]

***"And olsun bu təhlükəsiz*** (*qorxusuz-xatərsiz*) ***şəhərə*** (*Məkkəyə*)***"***[3]

Ey Müsəlman qardaşım!.. ALLAH`ın ﷻ ən xeyirli bölgəsi, ALLAH`a ﷻ və Rəsuluna ən sevimli bölgə olan mübarək torpaqlar haqqında nə düşünürsən? Məkkəyi-Mükərrəmə (ALLAH ﷻ əmin-amanlığını və şərəfini qorusun) Qiyamətə qədər haram bölgədir. ALLAH ﷻ belə buyurur:

---

[1] ən-Nəml surəsi, 27/91.
[2] əl-Bələd surəsi, 90/1.
[3] ət-Tin surəsi, 95/3.

***"…Ora daxil olan şəxs əmin-amanlıqdadır** (təhlükədən kənardır)**…"***[4]

ALLAH ﷻ bu diyarın sakinlərinə hüzur və əminlik nəməti bağışlamış, və belə buyurmuşdur:

***"Məgər** (müşriklər) **ətraflarındakı** (başqa şəhərlərdəki) **adamlar qamarlanıb götürüldüyü** (əsir alındığı, öldürüldüyü, qarət edildiyi) **halda,** (içərisində yaşadıqları Məkkəni) **onlar üçün müqəddəs, qorxusuz-xətərsiz bir yer etdiyimizi görmürlərmi?…"***[5]

Halbuki, eyni zamanda dünyanı qorxu, narahatlıq, döyüşlər əhatə edir, terror hadisələri və fəlakətlər yuxularını qaçırır, ən çirkin günahlar əmin-amanlığını pozur.

Müqəddəs bölgədə əmin-amanlıq yalnız insanla məhdudlaşmır, həmçinin heyvanları, bitkiləri, əkinləri, ağacları, malları və digər cansız

[4] Ali İmran surəsi, 3/97.

[5] əl-Ankəbut surəsi, 29/67.

varlıqları da əhatə edir. İslamın insan haqlarına verdiyi dəyəri göstərmək üçün bundan da mükəmməl dəlil ola bilərmi? İslam rəhmət, şəfqət, haqq, ədalət və sülh dinidir.

əl-Buxari və Muslim, Abdullah ibn Abbasdan ﷺ Məkkənin fəthi günü Rəsulullahın ﷺ belə buyurduğunu rəvayət edir:

*"Şübhəsiz ki, bu bölgəni ALLAH, göyləri və yeri yaratdığı gün haram bölgə elan etmiş və o, Qiyamətə qədər haram bölgə olaraq qalacaq. Onun tikanı kəsilməz, ovu hürkütülməz, orada olan əşyanı heç kim iznsiz götürə bilməz, yaşıl otu kəsilməz"*

Ey İslam ümməti! Bu bölgənin haramlığı hələ də qalır və böyük mövqeyi İbrahim və İsmaildən عليهما السلام Qiyamətə qədər daimdir. ALLAH عز وجل onu hər cür hilədən qorumuş və nəhəng heyvanlarla hücum edən zalım insanları ondan uzaqlaşdırmış, onlar görülməmiş şəkildə daşlarla həlak edilmişlər:

*"(Ya Peyğəmbər!)* ***Məgər RƏBB`inin fil sahiblərinə*** *(Kəbəni dağıtmaq üçün fillərlə Mək-*

*kənin üstünə gələn həbəş ordusuna)* ***nələr etdiyini görmədinmi?!"***[6]

ALLAH`a həmd olsun ki, bu əmin bölgədə, haqqın səsindən yüksək heç bir səs çıxmamış, tövhid bayrağından başqa bayraq dalğalanmamış, İslam dinindən başqa dinə inanılmamış, hənif inanca və imana əks olan şüar yüksəlməmişdir.

Bu böyük əmin-amanlıq bütün yer üzündə yalnız Haram bölgəyə məxsusdur. Sülh mövcud olan, silahlar olmayan, insanları özlərini əmin hiss edən, qanlar qorunan və qorxuların əminliyin olmadığı haram bölgə təşkil etmək üçün göstərilən bütün səyləri geridə qoymuşdur. Şüarlar və sivilizasiyalar payız yarpağı kimi bir-bir düşdüyü halda, Məkkə tarix boyu ALLAH`ın ﷻ qorumasıyla qorunmuş, tövhidin simvolu, əqidənin sığınacağı, hüzur və əmin-amanlıq çinarı olaraq qalmışdır. ALLAH`a həmd olsun.

---

[6] əl-Fil surəsi, 105/1.

Əziz hacılar! Bu qəbul edilən həqiqətdir ki, Müqəddəs Haramın (Məkkə və Mədinənin) müqəddəsliyinə inanmaq və onların əmin-amanlığını pozan hər şeydən uzaq olmaq sağlam inanc və əzəli mübarizədir. İllər və əsrlər bu həqiqəti dəyişdirə bilməz. İman əhli bu vəziyyəti nəzərində saxlamalı və onu qorumalıdır. Xüsusilə də fitnələr və hücumların olduğu bir vaxtda…

Ey Müsəlmanlar!.. İslam ümməti hücumlara və hər cəhətdən yüksələn haqsız çıxışlara məruz qaldığı bir vaxtda bu vəziyyət daha əhəmiyyətli olmuşdur. Heç kim bu haqsızlıqlara qarşı çıxmır. Əksinə, bəziləri iftira ataraq, gizli kinlə hərəkət edirlər. Onlara belə demək olar: "Tarixi oxuyun, çünki tarixdə ibrətlər vardır. Kəbənin onu qoruyan RƏBB`i var!"

İslama və Müsəlmanlara qarşı gizli və açıq şəkildə hilələr yürütməkdən əl çəkməyən dünya sionizmi tərəfindən İslamın müqəddəs dəyərlərinə, Müsəlmanlara və İslama edilən hücumlar qarşısında Haram Bölgənin əmin-amanlığını gücləndirmək köklü inancdır.

Sionistlərin Fələstin torpaqlarında və Məscidu`l-Aqsada etdikləri təkəbbür və terrorun dəlili olub, ağıllı insanlar üçün bir ibrətdir.

Beytullaha xidmət edənlər Onun şəriəti ilə hökm edən, rizasını tələb edən, Beytullahın qonaqlarına xidmət edən və asanlıqlar gətirən tövhid əhli olduğu zaman da ALLAH ﷻ mütləq onu qoruyacaq.

Ey İslam ümməti! Bütün Müqəddəs Haram ölkəsinə hakim olan ümumi əmin-amanlıq - ALLAH`a həmd olsun - nümunə göstərilir, hüzur və sülh misilsiz mənbə hesab olunur. Bəzi əks çıxışlar əmin-amanlığın daimliyinə zərər yetirməmiş, haqqa və hidayətə qarşı olan təzyiqlər onun gücünü zəiflətməmişdir.

Əcrini ALLAH`dan ﷻ gözləyən insan vəzifəni yerinə yetirdikdə (ALLAH`ın ﷻ şəriətini tətbiq etdikdə), Şamdan Ədənə qədər olan torpaqları ALLAH`ın ﷻ iznilə əmin-amanlıq əhatə etdi və günahkarlar təslim oldu.

Ehsanı və nemətlərinə görə ALLAH`a həmd olsun. Ölkənin və insanların əmin-aman-

lığına, qan tökməyə və günahsız insanların haqlarını tapdalamağa uzanan əllər qurusun.

Rəsulullah ﷺ hədisdə belə buyurur:

*"ALLAH dərgahında, dünyanın yox olması, Müsəlmanın öldürülməsindən daha əhəmiyyətsizdir."*[7]

ət-Tirmizi də rəvayət edilən hədisdə, Rəsulullah ﷺ Kəbəyə baxır və:

*"Nə böyüksən, dəyərin nə böyükdür! Lakin ALLAH dərgahında mömin dəyər baxımından səndən daha ucadır."*

Ey İslam ümməti! Bu sakit bölgəni (ALLAH ﷻ dəyərini və şərəfini artırsın) və bu müqəddəs torpaqları ALLAH ﷻ qoruyur və orada pis niyyəti olan insanlara belə xəbərdarlıq edir:

***"...Haqsızlığa meyl etmək istəyənlərə də şiddətli əzabdan daddıracağıq!"*** [8]

---

[7] ət-Tirmizi. ən-Nəsai. Abdullah ibn Amrdan rəvayət olunur.

[8] əl-Həcc surəsi, 22/25.

İslam qardaşları!.. Beytullaha Həccə gələnlər! Bu Haram Bölgəyə hörmət etmədə sələfin yoluna tabe olun. Abdullah ibn Amr ibn əl-As رضي الله عنهما belə deyir: "Xeyr, Vallahi!" sözlərini (lüzum olmadan and içməyi) Haram bölgədə haqdan azmaq hesab edirdik." Onlardan biri belə deyir: "Yeməkdə qüsura yol vermək və xidmətçiyə zülm etmək Haram bölgədə haqdan azmaqdır."

ALLAH`ın ﷻ haram qıldığı müqəddəs bölgəyə qarşı bu ədəb nə qədər gözəldir! Bu müqəddəs torpaqlar səni nə qədər cəzb edir. ALLAH`a ﷻ and olsun ki, bu doğruluğun və xilasın ünvanı gizli və aşkarda ALLAH`dan ﷻ layiqincə qorxmağın əlamətidir. ALLAH ﷻ belə buyurur:

*"(Ey insanlar! Həccin sizə vacib olan əməli)* ***budur. Hər kəs*** *(ihramda ikən)* ***ALLAH`ın haram buyurduqlarına hörmət*** *(riayət)* ***etsə, bu, RƏBB`i yanında onun üçün xeyirli olar ..."***[9]

---

[9] əl-Həcc surəsi, 22/30.

Əziz hacılar!.. Bu hüzur və əmin-amanlıq şəraitini pozmaqdan çəkinin və müqəddəs torpaqlara hörmətlə yanaşın. Sizlər, ALLAH`ın ﷻ izni ilə etibarlı insanlar və iman sahiblərisiniz. Hər biriniz Harameyn ölkəsinin əmin-amanlığını qoruyan gözətçi olun. Çünki onun əmin-amanlığı sizin əmin-amanlığınızdır.

Əziz hacılar!.. Beytullaha yönələn insanın yaddan çıxarmacağı bir mövzu da əminlik və iman, Beytullah və tövhid, Həcc və inanc arasında möhkəm əlaqə ilə bağlıdır.

***"İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!"***[10]

***"(****Ya Rəsulum!****) Xatırla ki, bir zaman İbrahim belə demişdi: "Ey RƏBB`im! Bu diyarı (****Məkkəni****) əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq elə!"***[11]

---

[10] əl-Ənam surəsi, 6/82.

[11] İbrahim surəsi, 14/35.

*"(Ya Rəsulum!)* ***Yadına sal ki, bir zaman İbrahimə Kəbənin yerini bildirib belə buyurmuşduq: "Mənə heç bir şeyi şərik qoşma, ..."***[12]

Daşlara və tarixi əsərlərə bağlı olanlar, divarlara və örtüklərə əl sürənlər, əl-AZİZ və əl-ĞAFFAR olan ALLAH`ı ﷻ unudanlar məgər bunu başa düşmürlər?

***"Ey mənim iki zindan yoldaşım!*** *(Sizə nə bir xeyir, nə də bir zərər verə bilən)* ***ayrı-ayrı tanrılar daha yaxşıdır*** *(ibadət olunmağa daha layiqdir)*, ***yoxsa bir olan,*** *(hər şeyə)* ***qadir*** *(qalib)* ***olan ALLAH?!"***[13]

Ey ALLAH`ın qulları! Hər işin əvvəlində və sonunda tövhid və inanc gəlir. Ümmət RƏBB`ini vahid qəbul etdikdə, cərgələri daha da birləşəcək.

*"(Ey insanlar!)* ***Həqiqətən, bu*** *(tövhid dini olan islam)* ***tək bir din olaraq sizin dininizdir.***

---

[12] əl-Həcc surəsi, 22/26.
[13] Yusuf surəsi, 12/39.

***Mən də sizin RƏBB`inizəm. Buna görə də yalnız Mənə ibadət edin!"***[14]

Bu şəkildə əmin-amanlıq və hüzur həyata keçir.

Ey ALLAH`ın qulları! ALLAH`dan layiqincə qorxun!.. ALLAH`ın müəyyən etdiyi ibadətlərə və ibadət məkanlarına hörmətlə yanaşın ki, dünyada və axirətdə xeyir və üstünlük əldə edəsiniz.

*"(Ey insanlar! Sizə əmr etdiyim)* ***budur. Hər kəs ALLAH`ın mərasiminə*** *(həcc əməllərinə, yaxud qurbanlıq heyvanlara)* ***hörmət etsə, bu*** *(hörmət)*, ***şübhəsiz ki, qəlblərin təqvasındadır*** *(ALLAH`-dan qorxmasındadır)"*[15]

Əziz hacılar! RƏBB`iniz ALLAH`dan layiqincə qorxun. Çünki O, təqvaya layiqdir.

Ey ALLAH`ın qulları!.. Budur mübarək Həcc günləri gəlib çatdı və dəyərli gecələri özü-

---

[14] əl-Ənbiya surəsi, 21/92.

[15] əl-Həcc surəsi, 22/32.

nü göstərdi. Onu gözləyənlərin qəlbləri coşdu. Müqəddəs Haram ölkəsi sizlərin gəlişinə sevinərək bütün nuru ilə ortaya çıxdı.

Əziz hacılar!.. Bu böyük ibadət üçün çətinliklərə qatlananlar!.. Yaşadığımız zaman və məkan şərəfinə görə ALLAH`a şükr edin. Sizlər Müsəlmanların qibləsi, Peyğəmbərlərin və Rəsulların yolu, böyük İslam dəvətinin beşiyi önündəsiniz. Bu məkan şərəfidir. Zaman şərəfinə gəldikdə isə, siz Zilqadə ayındasınız və çox dəyərli günləri qarşılıyırsınız. Bu günlər Zilhiccənin ilk on günüdür. Abdullah ibn Abbasın رضي الله عنهما rəvayət etdiyi hədisdə Rəsulullah ﷺ belə buyurur:

*"Saleh əməl edildiyi heç bir gün, bu günlər kimi (yəni Zilhiccənin ilk on günü kimi) ALLAH`a sevimli deyildir." Dedilər ki: "Ey ALLAH`ın Rəsulu, ALLAH yolunda cihad etmək də?" "ALLAH yolunda cihad etmək də. Yalnız canı və malı ilə cihada çıxan və onlardan heç bir şey geriyə qayıtmayan müstəsna."*[16]

---

[16] əl-Buxari.

Əcr və nemətlərti dəyərləndirin! Günahlardan və xətalardan çəkinin!

***"Həcc** (mövsümü) **məlum olan aylardır** (Şəvval, Zu`l-Qa'də ayları və Zu`l-Hiccənin birinci on günü)**.** (Həmin aylarda) **həcc ziyarəti vacib olan** (həcci özünə vacib bilən) **şəxsə həccdə olarkən** (qadınla) **yaxınlıq, söyüş söyüb pis sözlər danışmaq, dava-dalaş etmək yaramaz..."***[17]

Rəsulullah ﷺ belə buyurur:

*"Qəbul edilən Həccin savabı isə yalnız cənnətdir."*[18]

Mübarək hacılar!.. ALLAH ﷻ səni bu yerlərə qovuşduraraq və istəyinə çatdıraraq sevindirdi. Günahlardan qorxaraq və bağışlanma diləyərək göz yaşların axdı. Sözlərinin təmiz olmasına və gözlərini haramdan qorumağa çalışın. İbadətlə məşğul ol, qəlbini şəxsi ar-

---

[17] əl-Bəqərə surəsi, 2/197.

[18] əl-Buxari. Muslim.

zu və istəklərdən qoru! Dəvətinə qoşulub Həccə gəldiyin ALLAH`a عز وجل qarşı səmimi ol! Bu sənin hər yerdə vərdişin olsun. Gözəl əxlaq və dəyərli xüsusiyyətlərə sahib ol! Münasibətlərində ədəbli davran, hüzur və əmin-amanlığı qoru! Başqalarına əziyyət verməkdən və qarışıqlıq yaratmaqdan çəkin! Rəsulullahı ﷺ nümunə al! Rəsulullah ﷺ belə buyurur:

*"Həcc ibadətlərində məndən örnək alın!"*

Daxilinizdəki dini mühit və sizlərə verilən imkanlar ALLAH`ın عز وجل Müqəddəs Harama dürüst insanlar nəsib etdiyinin ən yaxşı dəlilidir. O insanlar, onlar üçün müvəffəqiyyət və daha çox saleh əməl diləyən dualarınıza layiqdirlər. ALLAH`dan عز وجل bu xidmətləri saleh əməl səhifəsinə yazmasını, hər kəsə hidayət, doğruluq və təqva nəsib etməsini diləyirik. Həmçinin ALLAH`dan عز وجل bütün hacıların ziyarətini qəbul etməsini və günahlarını bağışlamasını, onları doğru və savab qazanmış halda ölkələrinə qaytarmasını diləyirik. Şübhəsiz ki,

O, istənilənlərin ən xeyirlisi və ümid edilənlərin ən comərdidir.

***Abdu`r-RAHMAN əs-SUDEYS***
***Məkkə, 31/01/2003 Miladi***